2014-cü il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizliklərdən) və qərarlardan şikayətlərin araşdırılması məqsədi ilə Mərkəzi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü Bəxşeyiş Əsgərovun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 25 dekabr 2014-cü il tarixli, 42 saylı müraciət üzrə

# RƏYİ

Bakı şəhəri 26 dekabr 2014-cü il

Mən, ekspert qrupunun üzvü Bəxşeyiş Əsgərov Ağcabədi rayonu Şənlik kəndinin bir qrup sakini Quliyev Nazim Hüseyn oğlu və digərlərinin 2014-cü il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində 82 saylı Ağcabədi seçki dairəsinin 16 və 17 saylı seçki məntəqələrində seçki bülletenlərinin saxtalaşdırılması və hüquqlarının bərpa olunması ilə əlaqədar Mərkəzi Seçki Komissiyasına daxil olmuş 25 dekabr 2014-cü il tarixli 42 saylı müraciətini araşdıraraq **müəyyən etdim:**

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112.2-ci və 112.3-cü maddələrinin tələblərinə uyğun olaraq göndərilməmişdir. Belə ki, 112.2-ci maddənin tələbinə görə Seçki Məcəlləsinin 112.1-ci maddəsində göstərilən şəxslər şikayəti müvafiq yuxarı seçki komissiyasına təqdim edə bilərlər. 112.3-cü maddədə isə göstərilir ki, şikayət ilkin olaraq yuxarı seçki komissiyası tərəfindən təmin edilməzsə, həmin şəxslər dairə seçki komissiyasının qərarından və ya hərəkətindən (hərəkətsizliyindən) Mərkəzi Seçki Komissiyasına şikayət edə bilərlər.

Göründüyü kimi müraciət aidiyyət qaydalarının pozulması ilə daxil olmuşdur. Belə halda, yəni şikayət və ya müraciət aidiyyət qaydalarının pozulması ilə daxil olduqda yuxarıda göstərilən Təlimatın 8.6-cı bəndinə görə həmin müraciətin aidiyyəti üzrə göndərilməsinə dair qərar qəbul edilməlidir.

Yuxarıda göstərilənləri əsas götürərək, Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-ci və 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında" Təlimatın 8.6-cı bəndinə əsasən **r ə y ə g ə l d i m** :

1. Ağcabədi rayonu Şənlik kəndinin bir qrup sakini Quliyev Nazim Hüseyn oğlu və digərlərinin Mərkəzi Seçki Komissiyasına daxil olmuş 25 dekabr 2014-cü il tarixli 42 saylı müraciəti araşdırılması üçün aidiyyəti üzrə 82 saylı Ağcabədi seçki dairəsinin dairə seçki komissiyasına göndərilməlidir.

2. Rəy qəbul edildiyi andan 18 saatdan gec olmayaraq dərc olunsun (internet saytına yerləşdirilsin) və surəti müraciət etmiş şəxslərə göndərilsin.

**Ekspert qrupunun üzvü** **Bəxşeyiş Əsgərov**